# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT FƏNLƏRİ ÜZRƏ İNTEQRATİV TEST TAPŞIRIQLARI



**ŞAMİL SADIQOV**
*BPKİ və Yİ-nin Azərbaycan dili və ədəbiyyat kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru*
**shamilsadiq@hedef.edu.az**

*Məqalədə Azərbaycan dili və ədəbiyyat fənləri üzrə şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan test tapşırıqlarının başqa fənlərlə inteqrasiya imkanlarından danışılır.*

Ümumi təhsildə tətbiq olunmağa başlamış yeni kurikulumların xarakterik cəhətlərindən biri inteqrativlik, yeni təlim strategiyalarına verilən tələblərdən biri inteqrasiyadır [1]. «Kurikulum» jurnalında təqdim olunan dərs nümunələrində inteqrasiyaya aid misallar vardır. Lakin təlim prosesinin bir hissəsi olan qiymətləndirmədə inteqrasiya nümunələrinə az rast gəlinir.

Azərbaycan dili və ədəbiyyat fənlərinin təlimində məktəbdaxili qiymətləndirmədə inteqrativ metodlardan istifadəyə baxaq. Qiymətləndirmədə inteqrasiyanın imkanları bir çoxlarında şübhə doğura bilər. Lakin 5-11-ci siniflər üçün Azərbaycan dili və ədəbiyyat fənlərinə aid aşağıdakı nümunələrə diqqət yetirsəniz, fikrimizin əsaslı olduğunun şahidi olacaqsınız [2].

1. *Misallardan birində cəmlə toplananlardakı incə saitlərin cəmi bərabərdir.*

**A)** 1,5 + 0,5 =
**B)** 4 + 4=
**C)** 1 + 1=
**D)** 5 + 5=
**E)** 2,5 + 1,5 =

Bu suala ilk dəfə baxan şəxsə sualın şərti çətin görünə bilər. Amma oxucu sözlər və söz birləşmələri arasındakı məna əlaqəsini qura bilərsə, testin həllində çətinlik çəkməz. Bu test səviyyəsinə görə orta çətin kimi qəbul edilə bilər. Göründüyü kimi, dilçiliyin fonetika bölməsinə aid olan sual riyaziyyat fənninin çox primitiv bir misalı üzərində qurulub. Sadəcə, şagirdlər incə saitlərin soruşulduğunu bilmək üçün «toplanan» və «cəm» ifadəsinin mənasını bilməlidirlər. İlk öncə şagird misalları həll etməlidir. Cavablar ardıcıllıqla düzülsə, bu cür olar: 2, 8, 2, 10, 4.

A variantında toplananlardakı incə saitlərin sayı 3 dənədir (Bir tam onda beş + sıfır tam onda beş). Cəm isə ikidir. Deməli, toplananlardakı incə saitlərin sayı ilə cəm eyni deyil. Bunun üçün də doğru cavab kimi seçilə bilməz.

B variantında isə toplananlardakı saitlərin cəmi iki olduğu halda (dörd+dörd), cəm səkkizdir. Bu da düzgün cavab deyil, çünki saitlərin sayı ilə cəm eyni deyil.

D variantında yenə toplananlarda cəmi iki incə sait var, amma cavab ondur. Bizə isə lazımdır ki, toplananlardakı incə saitlərin sayı ilə cəm eyni olsun. Bu da doğru cavab deyil.

E variantında toplananlardakı incə saitlərin sayı (iki tam onda beş + bir tam onda beş) beşdir, cəm isə dörddür. Bu da düzgün cavab deyil.

C variantı isə düzgün cavabdır. Həm toplananlarda iki sait var (bir+bir), həm cavab ikidir, həm də cəmdə iki sait var (iki).

2. *Aşıq minayə gələ,*
*Xalın minayə gələ.*

*Küsmüşəm, barışmaram,*
*Göydən min aya gələ.*

*Şeirin təhlilindəki səhv fikirləri seçin:*

1. Birinci və ikinci misralarda heç bir məna yükü yoxdur.
2. Şeirdə müəyyən miqdar sayı var.
3. Şeirdəki isimlər adlıq, yönlük və çıxışlıq haldadır.
4. Şeirdə sifət də var.
5. Rədiflər isimdir.

**A)** *1, 3, 5* **B)** *1, 2* **C)** *3, 4*
**D)** *4, 5* **E)** *2, 3, 5*

Təqdim edilən test tapşırığı ədəbiyyatla inteqrasiya olunmuş morfoloji təhlildir. Bayatı üzərində şagirddən həm nəzəri biliklər soruşulur, həm də morfoloji təhlil. Təqdim edilən **1** düzgün fikirdir. Çünki bayatıların birinci və ikinci misralarında, doğrudan da, heç bir məna yükü yoxdur. **2** də düz fikirdir. Cinas qafiyələrdən sonuncusunda müəyyən miqdar sayı var. **3** də düzgündür, çünki **aşıq** adlıq halda, **minayə** yönlük, **göydən** isə çıxışlıq haldadır. **4** və **5** isə səhv fikirlərdir: şeirdə sifət yoxdur və rədif isim deyil, feldir. Cavab **D**-dir.

3. *Məntiqi ardıcıllığı davam etdirin:* [2]




**1.** S.Vurğun. «Vaqif»
**2.** H.Cavid. «Ana»
**3.** N.Gəncəvi. «Xosrov və Şirin»
**4.** ...

**A)** F.Köçərli. «Təlimi-Sokrat»
**B)** C.Məmmədquluzadə. «Kamança»
**C)** C.Cabbarlı. «Oqtay Eloğlu»
**D)** M.F.Axundzadə. «Aldanmış kəvakib»
**E)** M.Ə.Sabir. «Səttarxana»

Azərbaycanın xəritəsi üzrə hazırlanmış bu test tapşırığı coğrafiya fənni ilə inteqrasiya olunmuşdur. Testi həll etmək üçün şagird Azərbaycan coğrafiyasına bələd olmalıdır. Azərbaycanın siyasi coğrafiyasına bələd olan şagird əvvəlcə nömrələrlə qeyd edilmiş bölgələrin hara olduğunu müəyyənləşdirərək Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri haqqında soruşulan məntiqi tapmalıdır. Bir çox məntiq ağıla gələ bilər: sənətkarın harada doğulması, əsərin harada yazılması, əsərdə hadisələrin harada baş verməsi və s. S.Vurğunun «Vaqif» dramı və Bakı. Bunları əlaqələndirə bilən iki məntiq var: biri yazılma məkanı, biri isə səhnələşdirmə məkanı. H.Cavidin «Ana» pyesini Naxçıvanla bağlayan bir amil var: yazılma məkanı. N.Gəncəvinin «Xosrov və Şirin» əsərini Gəncə ilə bağlayan məntiq yenə yazılma məkanıdır. Bütün bunları müəyyənləşdirdikdən sonra «4 rəqəmi ilə işarələnmiş məkan haradır və burada hansı sənətkar hansı əsəri yazıb?» sualı ətrafında fikirləşmək lazımdır. Mövzuya bələd olan şagird üçün bunu tapmaq su içmək kimi asan bir şeyə çevrilir. C.Məmmədquluzadənin «Kamança» əsərini Qarabağda – Şuşa şəhərində yazdığı dərsliyimizdə verilmişdir. Deməli, cavab **B** variantıdır.

4. *Verilmiş sxemdə xronoloji ardıcıllıq baxımından sual işarələrinin yerinə yazıla bilən əsər hansıdır?* [2]




**A)** «Dəhnamə»
**B)** «Fərhadnamə»
**C)** «Leyli və Məcnun»
**D)** «Vərqa və Gülşa»
**E)** «Ayrılır»

Bu sxem çətin görünsə də, diqqətlə düşündükdə cavab tapmaq o qədər də çətin deyil. Tarixlə birbaşa bağlı olan bu test tapşırığında xronologiya soruşulur. Son zamanlar ədəbiyyat testlərində xronologiyadan daha çox istifadə edilir. Sualın şərtindən məlum olur ki, biz xronologiyanı iki yerdə tamamlayan bir əsər seçməliyik. Deməli, bu əsər müxtəlif dövrlərə aid olan eyni adlı əsər olmalıdır. Sxemə baxarkən aydın olur ki, eyni adda müxtəlif sənətkarlara aid olan bu əsərlərdən biri XIII əsrə, digəri isə XV-XVI əsrlərə aid olmalıdır. Əsərlərin yazılma tarixini yada salarkən görürük ki, XIII əsrdə yazılan yeganə əsər N.Gəncəvinin «Leyli və Məcnun» əsəridir. Ardıcıllığa baxarkən Cahanşah Həqiqinin divanı ilə «Bəxtiyarnamə» əsəri arasında xronoloji baxımdan yeganə əsər də «Leyli və Məcnun» əsəridir. Tarix fənni ilə inteqrasiya olunan bu ədəbiyyat testinin cavabı C variantıdır.

5. 


*Verilmiş sxemə uyğun olaraq Y və X-in yerinə felin hansı şəkilləri uyğun gələr?*




| | Y | X |
|---|---|---|
| **A)** | arzu | xəbər |
| **B)** | vacib | lazım |
| **C)** | əmr | arzu |
| **D)** | arzu | əmr |
| **E)** | arzu | şərt |

Adətən, *x* və ya *y-in* tapılması riyaziyyat, fizika, kimya və bəzi coğrafiya məsələlərində soruşulur. Bu testin gözəlliyi ondadır ki, *x* və *y*-in tapılması Azərbaycan dili fənni üzərindən soruşulur. Bu test tapşırığını aşağıdakı kimi də qurmaq olardı: «Oxuyaq» sözü felin hansı şəkillərində işlədilir? Cavab da əmr və arzu şəkilləridir.

6. *Verilmiş tarixi hadisələrlə bağlı olan bədii əsərləri müəyyənləşdirin:*

**1.** Babəkin Ərəb xilafətinə qarşı üsyanı
**2.** Sasani hökmdarı Bəhram şahın hakimiyyəti dövrü
**3.** Səfəvilərlə Osmanlılar arasında Çaldıran döyüşü
**4.** Ağa Məhəmmədin Qarabağa hücumu
**5.** XIX əsrin əvvəllərində İranla Rusiya arasında Azərbaycanın bölünməsinə aid müqavilə

I. «Vaqif» dramı
II. «Bəngü badə» poeması
III. «Yeddi gözəl» poeması
IV. «Gülüstan» poeması
V. «Od gəlini» pyesi

**A)** 1-I, 2-III, 3-IV, 4-II, 5-V
**B)** 1-V, 2-III, 3-II, 4-I, 5-IV
**C)** 2-V, 1-III, 4-II, 3-I, 5-IV
**D)** 1-II, 2-I, 3-III, 4-IV, 5-V
**E)** 1-III, 2-II, 3-I, 4-V, 5-IV

Təqdim edilmiş bu test tapşırığı tarix fənni ilə sıx inteqrasiya olunmuşdur. Orta məktəb proqramında verilmiş bu tarixi hadisələrdən geniş şəkildə danışılır. Sözsüz ki, bədii ədəbiyyatımız tarixi hadisələrlə yaxından əlaqədardır. Çünki dövrün tarixi hadisələri bədii ədəbiyyata çox böyük təsir edir. Hətta ədəbiyyata yeni mövzular verir. İstənilən bədii əsəri dərindən araşdırsaq, dövrünün tarixi proseslərinin izlərini görərik və dərsliklərimizdə istənilən qədər bu və ya digər mənada tarixlə bağlı olan əsərlər var.

Qeyd etdiyimiz nümunələr göstərir ki, ədəbiyyat müəllimləri qiymətləndirmə testləri hazırlayarkən bütün fənlərə aid inteqrativ testlər yaza bilərlər. Amma bu, o demək deyil ki, müasir tələblərə uyğun qiymətləndirmə testləri sırf inteqrativ test tapşırıqları olmalıdır. Qiymətləndirmədə inteqrasiya 20-30 faiz təşkil etsə, yetərlidir.

7. *Sxemləri tamamlayın:* [3]



**A)** dola, bitişdir **B)** tərəf, topla
**C)** qırmızı, bulaq **D)** doğru, siyir
**E)** bağla, izlə

Təfəkkür məntiqinə söykənən bu testin həlli üçün, birinci olaraq, nöqtələrin yerinə hansı sözün yazılmasını axtarmaq lazımdır. Birinci sxem tamdır. Digər sxemləri tamamlamaq üçün birinci sxemin məntiqini başa düşmək vacib şərtlərdəndir. Birinci sxemdəki «at» sözü əsas götürülmüş və digər sözlər müxtəlif sxemlərdə həmin sözə əsasən qurulmuşdur. Əvvəlcə fikir vermək lazımdır ki, «at» sözü ilə «saxla» sözünu birləşdirən nədir? Bu zaman qarşıya qoyulmuş oxlara diqqət yetirilməlidir. Hər iki sözün sadə fel olması, təsriflənən olması, təsirli olmasını yada salandan sonra bir-birinə əks istiqamətdə olan oxları nəzərə alaraq bu sözlərin antonim olduğunu görürük. «At» sözünün qarşısındakı «tulla» sözünə və oxa fikir vermək lazımdır. Məntiqi yanaşdıqda «tulla» sözü ilə «at» sözünün sinonimliyi üzə çıxır. Formaca eyni, mənaca müxtəlif (hər ikisi də eyni fiqur olmasına baxmayaraq, birinin içi dolu, ikincisinin isə boş olduğu nəzərdə tutulur) olan fiqurlarda verilmiş «at» sözləri şagirdi düşündürməli və o, sxemə əsasən bu sözlərin omonim olduqlarını müəyyənləşdirməlidir. Bu məntiqlə də digər fiqurlara yanaşaraq ikinci sxemdəki dairəyə və səkkizkünclü xanaya hansı sözün yazılacağını tapmalıdır. Ona da fikir verilməlidir ki, əslində, bütün sxemlər eynidir, aldadıcı olması üçün fərqli istiqamətlərdə fırladılmışdır. «Sarı» sözünün antoniminin və omoniminin verildiyini görürük, deməli, biz «sarı» sözünün sinonimini müəyyənləşdirməliyik. Artıq burada şagirdin sinonim haqqındakı biliyi ortalığa çıxır. «Sarı»(maq) sözünün sinoniminin «dolamaq» feli olduğunu tapan şagird üçüncü sxemdə artıq nəyi axtaracağını çox düşünməyəcək, birbaşa «yar»maq sözünün antonimini axtaracaq və bunun «bitişdir» olduğunu müəyyənləşdirəcəkdir. Düzgün cavab: **A**

İnanırıq ki, göstərdiyimiz nümunələr faydalı olacaq, müəllimlərimiz bu modellərdən yararlanaraq qiymətləndirmədə inteqrativ test tapşırıqlarından da istifadə edəcəklər.

## ƏDƏBİYYAT

1. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları). «Kurikulum» jurnalı, 2010, №3.

2. Sadıqov Ş., Mustafayev Z., Nəcəfov E., Mirzəyev H., Qurbanova R., Nəcəfzadə Ə. Azərbaycan dili və ədəbiyyat: inteqrasiya testləri. «Hədəf» nəşrləri, Bakı, 2010.

3. Sadiq Ş., Sadıqova Z. Azərbaycan dili test bankı. (I nəşr) Bakı, «Nurlan», 2007.

**Sadigov Sh.K.**

Integrative Test Tasks on Azerbaijani Language and Literature Subjects

*Integration opportunities of test tasks with other subjects used in assessment of education achievements of students on Azerbaijani language and literature subjects are mentioned in the article.*

**Садигов Ш.К.**

Интегративные тестовые задания по предметам Азербайджанского языка и литературы

*В статье рассматриваются возможности использования интегративных тестовых заданий в оценивании учебных достижений учащихся по предметам Азербайджанского языка и литературы.*